UOT-811.11-112
Səhifə: 171-175
https://doi.org/10.59849/2663-8967.2026.2.171

Həqiqət Mehdiyeva,
Şəhla Məmmədova
Azərbaycan Tibb Universiteti
e-mail hmehtiyeva@amu.edu.az
ORCID: 0009-0002-9295-0056
e-mail: memmedovashehla3 @gmail.com
ORCİD: 0009-0008-7416-6835

MÜASİR ALMAN DİLİNDƏ İNGİLİS MƏNŞƏLİ SÖZLƏR VƏ ONLARIN DİLƏ UYĞUNLAŞMASI PROBLEMİ

XÜLASƏ

Qədim zamanlardan başlayaraq dünya dilləri arasında qarşılıqlı və sıx əlaqə mövcud olmuşdur. Bu əlaqə cəmiyyətin tərəqqisi ilə eyni zamanda yaranmış və inkişaf edərək möhkəmlənmişdir. Elmi-texniki, siyasi-iqtisadi və mədəni inkişafın nəticəsində dilə əcnəbi sözlərin daxil olması, lüğət tərkibini zənginləşdirməklə yanaşı, bir sıra problemlər də yaradır. Bu mövzudan danışarkən alman dilinin lüğət tərkibində xeyli əcnəbi sözün olduğunu qeyd etmək lazımdır. Belə sözlər zaman keçdikcə fonetik və qrammatik qanunlara uyğunlaşır və həmin dilin lüğət tərkibinə daxil olur. Sözlərin bir dildən başqa dilə davamlı və ya müvəqqəti qəbul edilməsi və uyğunlaşması hər bir dilin ifadəliliyinə aiddir. Alman dilinin denglisləşməsi, lüğət ehtiyatının anqlisizmləşməsi- söz mənalarının, işarə qoyuluşunun və qrammatikanın, hətta cümlə quruluşunun və üslubunun dəyişməsinə gətirib çıxarır.

Açar sözlər: *dil, alınma söz, denqliş, tərcümə, qloballaşma.*

Giriş: Araşdırmalar nəticəsində aşağıdakı yeddi faktorun dil dəyişmələrinə təsiri müəyyənləşdirilmişdir: 1. Birləşmiş Millətlər Təşkilatının hegemonluğu altında iqtisadiyyat və turizmin qloballaşması; 2. Əsrlər boyu Böyük Britaniyanın ən qüdrətli dövlətlərdən biri olması, Amerika mədəniyyətinin təqlid edilməsi, daha çox azadlığa və inkişafa olan ehtiyac; 3. Modernləşmənin simvollaşması, ictimai-iqtisadi, texniki və mədəni inkişaf; 4. ABŞ-ın siyasi və iqtisadi innovasiyanın dayağı olması; 5. İngilis dilinin istifadəsinin artıq adət halına keçdiyi ABŞ və digər ingilis dilli ölkələrin təhsil ocağı olması; 6. Gülünc purizmin yenidən dirçəlməsi qorxusu; 7. İngilis dilində olan sözlərin tərcümə edilməsi tənbəlliyi.

Avropa və qlobal təhsil siyasəti insanların iki və üç dilliliyinə imkan yaradır. Ana dili və ingilis dilindən başqa hər bir insan dövlət dilini və qonşu ölkənin dilini öyrənə bilir. Yer üzündə hər bir insanın ingilis dilini birinci və ikinci xarici dil kimi öyrənməyə şansı var. İş bazarında, mədəniyyətlərarası mübadilələrdə yaranan əlaqələrdə sosial-iqtisadi imtiyazlar əldə etmək üçün eyni şansları dilə aid etmək olmur. Burada yalnız qəbul edilən sözlər, onların mənaları deyil, həm də qrammatik, sintaktik və stilistik vərdişlər müzakirə obyektinə çevrilir. İngilis sözləri alman sözlərinə müxtəlif yollarla keçir. [1, s.115-137].

Bəzi sözlər xarici söz kimi dəyişilmədən qəbul edilir və o şəkildə də tanınır. Məsələn: *das Congress Center*. Bəzi sözlər isə bütün formaları ilə almanlaşır. Məsələn: elektron poçtla göndərmə **mailen** adlanır. Məsələn: *Herunterladen – downloaden. Cakes – der Keks.* Bəzi sözlər bir çox almanlar tərəfindən ingiliscə yazılır, amma almanca tələffüz olunur. Məsələn: *City – Zitti; Computer – Komputer.*

Həmin nəşrdə yazılır: "İlk vaxtlar deyilən söz yazılışından daha önəmli əhəmiyyət kəsb etdiyindən alman yazı versiyası danışıq versiyasına uyğunlaşdırılırdı. Müasir alman dilinin düzgün yazılış qaydalarında xeyli sayda almanlaşmış xarici söz var. Bu gün Almaniyada *Natioln* sözü

altında *ein Staatsvolk* (*dik Gesamtheit aller Staatsbürger*) və ya hərdən *ein Land* kimi başa düşülür. *Nationalität* deyəndə hansı dövlətə mənsubluğu anlaşılır. Hazırda *Denglisch* adlanan sözlərdə *Dativ* və *Genitiv* halları get-gedə itməyə başlayıb.

Məsələn: *Man gibt dem Präsident die Hand, die Sitzungsdauer des Pardaments verkürzt sich untert Umstanden nicht nur das Wort.*

Der Laden Heinrichs - Heinrich's Boutique, Heinrichs Geschäft - Heinrich's Shop.

Anqlisizmlər əsasən isimlərdən və isimləşmiş feillərdən (e-mail, computer, laptop), eləcə də ingilis dilindən götürülmüş cümlə, ifadə və formalardan (Liebe mache von, to be make love) ibarətdir. «Denglisch» (Denqliş) termini alman dilindəki *Deutsch* (alman dili) və *Englisch* (ingilis dili) sözlərinin birləşməsindən yaranmışdır. Denqliş anlayışından yalnız isimlər deyil, həm də ingilis dilindən alınmış feillər və sifətlər alman dilində işlədildikdə danışmaq mümkündür." [2, s. 123-144]

Əsas faktlardan biri odur ki, alınma sifətlər və feillər isimləşərkən alman fleksiya sisteminə daxil olmalıdır. Məsələn: *die/das E-Mail, die E-Mails, der Server, die Server.*

İngilis dilinin qrammatikası alman dilinin qrammatikasından fərqləndiyi üçün tez-tez ingilis dilindən alınma sözlərdə hallanmada və sözlərin cinsinin təyin edilməsində qeyri-müəyyənlik meydana çıxır. İngilis dilindən tərcümədə çox zaman eyni mənanı verməsə də formal şəkildə uyğun gələn alman sözlərindən istifadə olunur.

Məsələn: *Novelle-novel* (ingiliscə *roman* deməkdir).

Hər bir dildə normal proses olan məna dəyişmələri gündəlik danışıq dilinə tərcümələrdə daha geniş vüsət almışdır. Alman dilində uyğun ekvivalentin olub-olmadığını yoxlamadan anlaşılmaz yeni sözlər yaran bilər.

Məsələn: *Nonproliferationsvertrag* (ing. *non-proliferation treaty*)

Əslində isə 1960-cı ildən bəri *Atomwaffensperrvertrag* sözü mövcuddur və işlənir. Anqlisizmlərə ingilis dilinin daha çox hökmran olduğu iqtisadiyyat, elm, pop musiqi, informatika sahələrində olduqca çox rast gəlinir.

Məsələn: «*Ich musste die Harddisk neu formatieren, weil der falsch gesteckte Jumper zur data corruption geführt hat und der Computer gecrasht ist*».

Anqlisizmlərsiz bu cümlə aşağıdakı kimi səslənərdi:

«*Ich musste die Festplatte neu formatieren, weil der Daten durch eine falsch gesetzte Steckbrücke wurden und der Rechne abgestürzt ist*».

Marketinqdə də tez-tez səslənməsi gözəl olan ilkin məna və tərcüməsi aydın olmayan başlıqlardan istifadə olunur. Elə bu şəkildə də yeni istehsal prosesində vahid məhsul adları yaranır. Əvvəllər sahə və sosial jarqonlardan götürülmüş sözlər yazılışına görə alınma dilinə uyğunlaşdırılardı. Buna bariz nümunə olaraq *Couvert* (Kuvert), *Cakes* (Keks) və *Disquettes* (Disketten) və başqalarını misal göstərmək olar. Bu gün isə sözlərin alman dilinə uyğunlaşdırılmasından yan keçilir. 1980-ci illərdə təklif edilmiş «*Kompüter*» sözü öz təsdiqini tapmadı. Hazırda alman dilində *Computer* sözü ilə yanaşı *der Rechner* sözü də mövcuddur. İngilis mənşəli sözlər iqtisadi müəssisələrin səyi və ingilis dilinə olan meylin nəticəsi olaraq reklam, iqtisadiyyat və mətbuat vasitəsilə alman dilinə daxil olmuşdur. Buradan belə nəticəyə gəlmək olur ki, iqtisadiyyat və əhalinin böyük bir hissəsi bu inkişafa uyğunlaşıbdır. 1990-cı ildən bəri ingilis sözlərinin həyatın bütün sahələrinə daxil olması nəticəsində internetin sürətlə yayılması baş vermişdir.[3, s.132]

İngilis dilində alınan sözlərin spesifik kontekstdə işlədilməsi zamanı praqmatik kontekstə fikir verilməzsə, semantik dolaşıqlığa gətirib çıxarır. Məsələn: *Rückack – Umhängetasche, Body bag – Leichensack* və s.

Cəmiyyətin qloballaşması, texnika və elmin nailiyyətləri, ingilis sahə anlayışları, bir tərəfdən alman dilinin yeni yaşam tərzinə uyğunlaşması, digər tərəfdən ingilis dilinin birinci xarici dil olmasına gətirib çıxarır. İngilis sözlərinin alınması və uyğunlaşması alman dilinin aktual inkişafını ifadə edir. Bu inkişaf çərçivəsində alınma sözlər almanlaşır, qrammatik – cins, cəm sonluğu, ümumi qəbul edilmiş məna və kontekts əldə edir.

Məsələn: *Ich habe «gedownloadet»* (və ya geupdatet) düzgün forması olan «*Ich habe cowngeloadet*» cümləsi ilə eyni səviyyədə işlənir (dovn-herunter, geloadet-geladen).

"İngilis dilinin qrammatik konstruksiyasının alman dilində işlənməsinin özü bir fenomendir. Bunlar ingilis dilində olan mətnlərin qeriy-professional tərcüməsi vasitəsilə, aşağı səviyyəli ingilis və amerikan film sinxron tərcümələri ilə yaranır.

Məsələn: *this makes sense – das macht Sinn – das macht Sinn* (das hat Sinn, das ergibt Sinn, das ist sinnvoll, das ist vorteilhaft, das ist plausibel).

- I find you a … - ich finde dich einen … (ich halte dich für einen …, für nicht bist du ein…)

- In 1968 (im Jahre 1968 və ya yalnız 1968).

- to remember sth. – Etwas erinnern, ich erinnere etwas (sich an etwas erinnern. Ich erinnere mich an etwas)

- in English/German – in Englisch/in Deutsch (auf Englisch və ya «im ENglischen», «im Deutschen»)

- in Iraq, Iran – in Irak, in Iran (im Irak, im Iran)

- Not really – nicht wirklich (eigentlich nicht əvəzinə)" [4, s.45]

Alınma sözlərdə çox zaman alman dilinin qrammatik strukturu itir və ingilis dilinin strukturu ilə əvəz edilir. «*Sinn machen*» və təsirli feil olan «*erinnern*» feilinin işlənməsindən hiss olunur ki, bu ifadələr əvvəllər də alman dilində işlənmişdir. Bu adı çəkilən formalara əbədi qaydalar sistemində də rast gəlinir. Denqlişin əleyhinə olanlar fikirləşirlər ki, köhnə formalar getdikcə məhv olur və yalnız bu gün istifadə olunan dil həlledici rol oynayır.

İngilis dilinin təsiri orfoqrafiyadan da yan keçməyib.

Məsələn: apastrofla ayrılan «*s*» sonluğu.

- Genitivdə - Angela's Frittenbude.

- qısaldılmış sözlərin cəmində, «*LKW*» s.

Başqa bir misalda ingilis dilinə sonu ***y*** ilə bitən isimlərin cəm formasına alman dilində olan mətnlərdə də rast gəlinir. *Hobbys* və *Babys* əvəzinə *Hobbbies* və *Babbies*. Dilçilikdə daima təsirə və dəyişikliyə məruz qalma fikri heç də mübahisəli fikir deyil. Tam «təmiz» və «ən yaxşı» dil olmayıb.

Ümumiyyətlə, söhbət alman dilindən gedirsə o, on minlərlə söz işlətdiyi müxtəlif Avropa dilləri ilə daim kontaktdadır. Bunun nəticəsində Denqliş canlı dillər üçün səciyyəvidir. Əksər hallarda bir çox əşyaların alman dilində düzgün ifadə olunmadığı fikirlinə rast gəlinir. Texnika sahəsində yeni yaranan anlayışlar eyni şəkildə beynəlxalq arenada istifadə olunur və bu müsbət hal hesab edilir. Xarici dil öyrənən və ya danışan insanlar üçün yeni anlayışların tərcümə olunmaması münasib olardı. Denqlişin istifadə olunmasının əleyhinə olan insanlar anlayışların həm də alman dilində işlənməsi fikrini irəli sürürlər. Əsas arqument ondan ibarətdir ki, yeni anlayışlar birinci istifadə olunmalıdır. Bununla yanaşı alınma sözlərdən əvvəl mövcud olan alman sözlərindən yenə də istifadə olunmalı və yenidən canlandırılmalıdır.

Məsələn: *motherboard – Hauptplatine*.

Bundan başqa uyğun və yararlı sözlər axtarılmalı və ya düzəldilməlidir. Hərçənd ki, bu cəhdlər də uğurlu olmya bilər. Bundan başqa nəzərə çatdırılır ki, alınan sözlər alman əlifbasına uyğunlaşdırılarsa bu heç də yararlı olmaz.

Məsələn: *komputer – computer*.

Latın qrafikalı olmayan dillərdən (rus, yunan) keçən anlayışları da orijinal şəkildə saxlamaq mümkün olmayacaq. Purizm tərəfdarları alman dilini xarici təsirlərdən qorumaq üçün «təmizlənmə» aparılmasının vacib olması fikrini söyləyirlər. Başqa tənqidçilər dilin saflaşdırılmasından çox Denqlişin bir dəb növü ifadə etdiyini bildirirlər. Alman dili ilə bir çox dillərin qrammatik quruluşlarının bir-birindən köklü surətdə fərqlənməsi başqa dildən keçən sözlərin də alman dilinin fonetik normalarına və morfoloji quruluşuna tabe olmasına müəyyən dərəcədə təsir göstərir. Alman dilinə məxsus olan söz başqa dil mühitində asanlıqla assimilyasiyaya uğraya bildiyi halda bu dilə keçən əcnəbi sözlər assimilyasiya edilmir və öz formasını az və ya çox dərəcədə saxlaya bilir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq bu nəticəyə gəlmək olar ki, bir dildən digər dilə yeni sözlərin daxil olması heç də göründüyü qədər asan proses deyildir.

Ədəbiyyat siyahısı

1.Ferris Goldenstein, Business Denglisch. The book For the better moneymaking. Baumhaus Verlag. Frankfurt am Main 2007.p.115-137

2.Gerhard H. Junker: Der Anglizismen – INDEX, IFV, Verlag 2005.page:123-144

3. Thomas Paulwitz und Stefan Micko:, «Engleutsch? Nein, danke! Wie sag ich′s auf deutsch». Ein Volks – Wörterbuch, 2 Auflage, Erlangen und Wien, 2000, p.132 .

4.Wolf Schneider: Speak German! Warum Deutsch manchmal besser ist. Reinbek: 2008.p.45.

М.Хагигат, М.Шахла

Слова английского происхождения в современном немецком языке и проблема их языковой адаптации.

Резюме

Слова, прошедшие в современный немецкий язык с английского языка и проблема соответствия их языку. В данной статье рассматриваются пути перехода слов с английского языка в современный немецкий язык, перевод новых понятий, а также сложности, возникшие при этом процессе. С древних времен между языками мира существовала взаимная и тесная связь. Эта связь возникала одновременно с прогрессом общества и укреплялась по мере его развития. Введение заимствованных слов в язык в результате научно-технического, политико-экономического и культурного развития, помимо обогащения словарного запаса, также создает ряд проблем.

Говоря об этом, следует отметить, что немецкий язык имеет в своем словарном запасе большое количество заимствованных слов. Такие слова со временем адаптируются к фонетическим и грамматическим законам и становятся частью лексики этого языка. Постоянное или временное заимствование и адаптация слов из одного языка в другой является характерной чертой выразительности каждого языка. Денглишизация немецкого языка, англицизация лексики — приводит к изменению значений слов, пунктуации и грамматики, и даже структуры предложений и стиля. «Денгиш» несомненно является средством выражения немецкого языка, часто являющимся результатом влияния ложных англицизмов. В настоящее время денглизация стала объектом исследований в немецкой лингвистике.

Ключевые слова: *язык, заимствованное слово, денглиш, перевод, глобализация.*

M.Khagigat, M.Shakhla

Words of English origin in modern German language and the problem of their language adaptation

Summary

In this article is spoken about the English words, which are used in modern German language, new meanings of these words and about difficulties which we met during this process.

The words in the modern German language which were taken from the English language and their problems.

Since ancient times, there has been a mutual and close connection between the languages of the world. This connection arose simultaneously with the progress of society and strengthened as it developed.

The introduction of borrowed words into the language as a result of scientific-technical, political-economic and cultural development, in addition to enriching the vocabulary, also creates a number of problems. Speaking of this, it should be noted that the German language has a large number of borrowed words in its vocabulary.

Such words eventually adapt to phonetic and grammatical laws and become part of the vocabulary of this language. Permanent or temporary borrowing and adaptation of words from one language to another is a characteristic feature of the expressiveness of each language. Denglishization of the German language, Anglicization of vocabulary — leads to changes in word meanings, punctuation and grammar, and even sentence structure and style.

"Dengish" is undoubtedly a means of expression of the German language, which is often the result of the influence of false anglicisms. At present, Denglization has become an object of research in German linguistics.

Key words: *language, borrowed word, Denglish, translation, globalization.*

Çapa tövsiyə edən: ***Azərbaycan Tibb Universiteti***

Rəyçilər: ***fil.e.d.,dosent Y.Süleymanov***
fil.üz.f.d.,dosent S.Bağırova